# “RUHUN DAŞQIN”INDA...

Neçə gündür masamın üstündə şair, publisist, nasir ədəbiyyatşünas, tənqidçi Əli Rza Xələflinin “Ruhun daşqını” adlı yeni kitabının əlyazması var. Bu kitaba ön söz yazmaq fikrindəyəm. Amma ilk günlər əlyazmanı götürüb vərəqləməyə belə cəsarət etmədim. Əli Rza müəllimin dağ çayı kimi coşub-daşan, çağlayan təbinə, hər əsərində təzəcə göyərən sünbül kimi yepyeni fikirlərinə, sözünün çəkisinə, işıqlı təfəkkürünə, məntiqinə, ədəbi zövqünə az-çox bələd olduğumdan bir qədər düşündüm. Məsuliyyət hissi məni basdı. Hiss etdim ki, ağır bir yükə çiyin vermişəm. Halbuki bu, Əli Rza müəllimlə bağlı ilk yazım deyildi, təxminən 2-3 il əvvəl onun “Sözün yeddi gözəli” kitabı haqqında geniş bir məqalə ilə mətbuatda çıxış etmişdim... İndi çapa hazırladığı bu kitabın arasını açmamış, elə adından duydum ki, bu, vəhylə yazılmış bir əsərdir... Qərəz, anladım ki, “Ruhun daşqını” adlı kitaba ön söz yazmaq zor bir işdi. Bundan ötrü əlyazma ilə təkcə tanışlıq kifayət etməz, onun fabulasını duymaq, qavramaq üçün əsəri arın-arxayın, heç yana tələsmədən oxuyub, ruhumda daşqın olmasa da, dalğalar yarandıqdan sonra bilgisayarın qarşısına keçməliyəm... İllər öncədən onu da hiss etmişəm ki, qəlbi daim yaradıcılıq eşqilə çırpınan Əli Rza Xələflinin hər hansı bir əsəri haqqında söz deyərkən onun geniş tədqiq-təhlil imkan-səriştəsini, həssaslıq və duyğusallığını da nəzərdən qaçırmaq olmaz...

Əli Rza Xələflinin «Ruhun daşqını» adı ilə təqdim elədiyi yeni kitabı şair, telepublisist, Əməkdar jurnalist Avdı Qoşqarın yaradıcılıq yolunun, şair taleyinin özünəməxsus məqamlarının araşdırılmasına həsr olunub. “Ruhun daşqını”ndakı məqalə-esse-araşdırma yazıları həm də Avdı Qoşqarın ədəbi taleyinə nə qədər elmi yanaşmadırsa, bir o qədər də bədii ekskursdur. Əli Rza müəllim bu ekskurs yazını elə bil qanı ilə yazıb. Tərənnüm elədiyi, öyrənib tədqiq elədiyi obraz kimi onun da göylərdən eşidilən səsi mənəvi aləmindən qopan ağrılar təki yandırıb-yaxır adamı. Bu ağrıları müəllif, insanlığa ithaf edilən nəğmələr kimi oxuyub. Elə oxuyub ki, bu səsi eşitməmək, eşidib də hay verməmək olmur. Bu səs adamın ruhunu, bütün varlığını titrədir, pərvazlandırır. Bu səs həm də təbii daşqınların, qasırğanın, sunaminin ağzına alıb məhv etdiyi məmləkətlərin dərdi kimi ağırdı, çox ağır... Əli Rza Xələfli elə giriş sözündəcə Avdı Qoşqarın yatmış ruhları oyatmaq, ölü qəlbləri də dirçəltmək gücündə olan “Çıx çəpər dibindən...” şeirini şairin xarakterinin, yaradıcılıq ruhunun işığında təhlil edir. Şeir bütün ideya-mahiyyəti ilə xarakterizə olunur. Elə kitabda yer alan ilk yazı ilə də Avdı Qoşqarın ədəbi taleyinə işıq çilənir.

“Ruhun daşqını”nında müəllif Avdı Qoşqar yaradıcılığının ideyasını, mövzularını və bunların mahiyyətində dayanan dərdləri, ağrıları, şairin hayqırtısını, usyankarlığını arayıb-arıdıb incələyərək düşüncəsində nizamladığı ardıcıllıqla ipə-sapa düzüb. Fikirlər toplusunu səsinə uyğun notlarda yerləşdirib. Nəticədə belə bir məntiqi ardıcıllıq alınıb: “Göy üzündə səs” - Avdının səsi yağış təki göylərdən yağır; “Yerlə göyün arasında” - yerlə-göylə əlləşən şairlərdən olduğu üçün o, həmişə əbədi savaşdadır, bu, müəllifin yazdığı kimi, qanı ürəklərə süzülən ruhun savaşıdır; “Sarayın bünövrə daşı” - yaradıcılığa gəldiyi yolun başlanğıcından düşüncə adamı kimi yetişməsi, yeni nəfəsin, ilk sözün işığı; “Gördüyüm dünyanın ağrısı” -yaşadığı ağrıların yaradıcılığında əksi; “Ruhun daşqını” - təbiət daşqınları kimi, insan ruhunda yaranmış üsyanların, qəzəbin, qanı daman sözünün daşqınları; “Üzü küləyə nəğmələr” - bu, Avdı Qoşqar duyğularının qavranılmasıdır. Müəllifin dediyi kimi, “Üzü küləyə nəğmələr”i hər şair oxuya bilməz; “Ürək-ürək insan gəzmək” - Avdı Qoşqar mükəmməl insan obrazını yaratmaqdan ötrü “ayağında dəmir çarıq, əlində əsa” illər uzunu bədii axtarışda olub, “ürək-ürək insan gəzib”; “Yaşın Domokl qılıncı” - şair 60 yaşa hansı ədəbi yolla gəlib... Əli Rza müəllim burda “Yetdim altmışa” şeirini söz ələyindən keçirib; “Hər damlada bir işıq” - Əli Rza Xələfli bu işığı şairin şeirlərindən seçmələrdə axtarıb, tapıb və bizi o işığı görüb-duymaqdan ötrü poetik düşüncələrin dərin qatlarına çəkə bilib; “İnsanın dəyəri” - Burda Avdı Qoşqarın ədəbi çəkisi şəxsiyyəti, yaradıcılığının cövhəri ilə ölçülür; “Və Avdı Qoşqara bir məktub” - sözə təşnə, dərdliyə dərddaş olan Əli Rza Xələfli insanın mənəvi, ictimai ağrılarını diqqətə çəkir; “Müsahibə: Cəzanı Tanrıdan istəmək” - qəhrəmanı ilə üz-üzə söhbət duyğusal dostların mənəvi bağlılığının əsas amilidir; “Bizdən sonra yaşarı sözümüz” - ...ömür bitər, söz bitməz... müəllif Avdı Qoşqarın son şeirlərini (axarıncı) yeni daşqın hadisəsi prizmasından səciyyələndirir; “Müəllif haqqında məlumat” - Əli Rza Xələflinin ömürlüyü haqqında ilk dəfə eşitdiyim yepyeni məlumatı və 44 adda kitabı heyrətlə, rəğbətlə qarşıladım... Əminəm ki, bu kitabların hər biri ayrılıqda bir tədqiqat əsəri, bütövlükdə isə bədii-publisistik janrda yazılacaq epopeyadır... Kitabda yer almış məqalələrə ilk söz yerində olan bu xronikal baxış “Ruhun daşqını”nın ideyası, mənəvi ucalığının detalları və Avdı Qoşqarın ədəbi obrazının müəllif tərəfindən dəqiq müşahidə olunmuş ştrixləridir...

... Çıx çəpər dibindən, qaya çatından ... Sürünən ruhları silkələ, qaldır... Adamın ruhu alışır, odunu söndürmək üçün göyün üzünə çəkilməyi gəlir... Əli Rza şeirin hər sətrini, ifadəsini elə bir təhlil süzgəcindən keçirir ki, onun məna çalarları, ideyası ...çılın-çılpaq həqiqətlər səsin və rəngin ecazı ilə göz önündə canlanır. Mənə görə Avdı Qoşqarın yaradıcılığında zirvə olan bu şeirin təhlili tədqiqatlarda, elmi-nəzəri təhlillərdə gedilmiş yolların, ifadə üslubunun tam əksinədir - yenidir, orijinaldır. Bunu quru söz xatirinə qəbul etməyin, rica edirəm... Siz Əli Rza müəllimin səsinə də qulaq verin: “...Avdı Qoşqar mənəviyyatın parçalanması ilə bağlı mübarizəyə çağırış edir, yoxsa, “Çıx çəpər dibindən...” şeiri necə yarana bilərdi? Yoxsa biz bir çox motivlərinə görə Məmməd Araz şeirinin sonsuz həyəcanla müşaiyət olunan emosiyasının davamını bu şeirdə görə bilərdikmi? (Ə.Xələfli öz təhlilində Avdının bu şeirində onun üsyankar səsini 90-cı illərin əvvəllərindəki Məmməd Araz səsini xatırlatdığını (“Yatmış vulkan”) diqqətə çəkir) Poetik nəfəsin sahibi M.Araz poeziyasına müqəddəs kitab kimi and içir, onun ruhunu başının üstündə hiss edir: Səninləyəm, qoca vulkan. M.Arazın bu sözləri şairə imkan verib ki, bütövlükdə milləti Vətən, Vətəni millət kimi görsün və bu diri cana, oyaq ruha müraciət edərək ona kimliyini anlatsın:

***Şair-publisist Əli Rza Xələflinin «Ruhun daşqını» adı ilə oxuculara təqdim olunan kitabına şair-telepublisist, Əməkdar jurnalist Avdı Qoşqarın həyat və yaradıcılığından bəhs edən məqalələri toplanıb.***

***Kitaba toplanan məqalələr ayrı-ayrı vaxtlarda yazılsa da, Avdı Qoşqarın poetik yaradıcılığı haqqında dolğun təsəvvür yaradır. Yazılar publisistik üslubda, canlı dillə qələmə alındığından maraqla oxunur. Şairin həyat, cəmiyyət və təbiət hadisələrinə poetik müdaxilə və münasibəti ədəbi təhlil sücaətindən keçirilir, düşün-cənin alt qatına nüfuz edilir; bununla da oxucu ilə kitab arasında səmimi ünsiyyət körpüsü yaradılır.***

***Diqqətli oxucunun «Ruhun daşqını»nı maraqla qarşılayacağına inanırıq.***



Əli Rza Xələfli deyir ki, bəli, Avdı Qoşqarın belə şeirləri də var; o şeirləri ki, yatmış ruhun qulağına elə bağırır ki, onun beyni-başı çatlasın, itaət öz qılafından çıxa bilsin, anlasın ki, o, yalnız qəhər içində ömrünü başa vura bilməz; axı, onu ata-babaların suvar olduğu kəhər gözləyir. O kəhərin bu gün adı qəzəbdir; qərəzdən xali, haqqını qaytarmaq uğrunda dolduğu qəzəb... bu qəzəbin köhlənin vara bilməyən yəqin ki, öz taleyini yaza bilməyəcək. Əgər şair üçün həqiqəti deməyin son ucu varsa, Avdı Qoşqar üçün həqiqəti deməyin son ucu elə bu yerdir. Axı, insan nə qədər çəpər dibində baş girləyə bilər... Müəllifin bu şeirə təkrarən qayıtması, onun ümumi ideyasından başqa hər sözünə, ifadəsinə fikir bildirməsi “Çıx çəpər dibindən...” şeirinə açıqdan vurulduğunu göstərir. Əli Rza Xələfli də kiməsə, nəyəsə vuruldumu damarından şoruldayan qanını kəsmək olmur...

Bir daha təkrar etməkdən çəkinmirəm ki, bu şeirin təhlili bu vaxtacan gördüyüm, oxuduğum tədqiqatlarda, elmi təhlillərdə gedilmiş yolların, bədii-nəzəri tədqiqin tam əksinədir, yeni və orijinaldır. Klassik şeirimizin nəhənglərindən (Nizami, Nəsimi, Vidadi, Vaqif, Səməd Vurğun...) məzmun, ideya və mahiyyətcə öyrənmək, o xətti yeni formada davam etdirmək, müqayisələr aparmaq nə qədər məqsədyönlü və ibrətlidir. Burda mövzuya fərqli yanaşmalar, içdən gələn yanğı adamda heyrət doğurur: “o, əsas mahiyyəti etibarilə özü və cəmiyyət arasında gördüyü mənəvi əlaqələr körpüsü üstündə yeriyir”... “Onun sözü doğulan andan çırpınır, qanad çalır və uçmaq üçün səmaya - düşüncə səmasına can atır...” Avdı Qoşqarın ömür-yaradıcılıq yolunun bütün məqamları, özünəməxsusluğu təptəzə, bədii axtarış və kəşflərinin fonunda, projektorun gur işığı altında seçələnib təqdim olunur. Təhlillərdə Avdının səsi-sözü göylərdən eşidilir. Bu, şairin, həm də Əli Rza Xələflinin təpədən-dırnağa ruh adamı olduğunu göstərir. Hər hansı mövzuya baxışda onun Avdı Qqoşqarla fikirləri üst-üstə düşür. Əli Rzanın ruhundakı daşqını özünün dediyi kimi, Avdının son zamanlar yazdığı şeirləri yaradıb. Qəlbindən süzülən şeirlər şairin ürəyində necə daşqınlar yaratmışdısa, eləcə də bu şeirləri oxuyan Əli Rza Xələflinin də düşüncəsinin daşqınları ara vermir; sözü bitib-tükənmir, qıjıltı ilə gələn seli sərhədləri söküb-dağıdır. Həyatın sərt döngələrində daşa-qayaya çırpılır, gözlərilə gülə, yarpağa tumar çəkir, uçalıqda olan həqiqəti çəkib gətirir, ona söykənir. Gülə aşiq bülbültək könülləri xoş avazlı səsi-sözü ilə ruhlandırır. Bu yerdə belə bir hökm tam mənəvi haqla yerinə düşür. Əli Rza Xələfli təbiətinin oxşarı yoxdur... Əlbəttə, səmimiyyətdə ürək genişliyində...

“Poeziya yanan dərddir... Şair isə dərdçəkən; yanan yanğıları, dərdləri varlığına çəkənin özü də dərd deyilmi”- deyir Əli Rza müəllim. Bu, başdan-ayağa, dərdlə, qayğılarla yüklənmiş, qeyrət, vicdan hissilə haqq-ədalət axtarışında olan şairin poetik yaradıcılığının ideya-mahiyyətini açmaq, yerini göstərmək üçün tutarlı ədəbi zəmindir. Və bu zəmini bütün qatlarınacan açmaq, yoğurub bağrımıza yapmaq da müəllifin təbinin, ədəbi təfəkkürünün meyarıdır. Axı onun özünün də şeirlərinin mayasında ictimai ağrılar, insanın taleyi dayanır. O, dərd biləndi, dərdlini duyandı. Onçun da deyir: Bəri gəl, mən dərd bilənəm!..

Avdı Qoşqarın yaradıcılığı müəllifi odda qarsılan təki yandırıb, qanı axan yaddaşını dağlayıb. Yanğılar qovuşanda müəllif şairlə bölüşmək, tənləşmək istəyib. Belə bir istək Avdı yaradıcılığına bütün prizmalardan, həm də şair, yazıçı, ədəbiyyatşünas və nəhayət, azərbaycançılıq məfkurəsinin daşıyıcısı olaraq, vətəndaş təəssübü ilə yanaşmasında ifadə olunur. “Şairlər yerlə, göylə əlləşir.

Allahın, bəndənin arasında... Bu, əbədi savaşdır, qanı ürəklərə süzülən ruhun savaşı...” Fikir verin, sözün közü sanki bir xəfif mehə bənddi, toxundumu, alışacaq, qırmızı dilimləri göylərə bülənd olacaq. Bu ədəbi tənqiddə fərdi cizgiləri ilə aydın seçilən Əli Rza Xələfli üslubudur.

***Şəfəq NASİR,***
***filologiya üzrə fəlsəfə doktoru***